Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin kollegiyasının 2013-cü il 20 iyul tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**İnzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi haqqında inzibati reqlament**

## 1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı: İnzibati cərimələrin və maliyyə sanksiyalarının internet vasitəsilə ödənilməsi.

1.2. Elektron xidmətin məzmunu: qrant alınması (verilməsi), antiinhisar, reklam və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi tərəfindən tətbiq edilən inzibati cərimələrin və maliyyə sanksiyalarının dövlət büdcəsinə ödənilməsi ilə bağlı elektron xidmətlərin göstərilməsi qaydalarını müəyyən edir.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:

*1.3.1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 222-ci (həmin məhsulların istehlakçılara təklif olunması mərhələsində), 428.1-ci, 428.2-ci, 428.3-cü, 428.6-cı, 432.1-ci (kommersiya hüquqi şəxslərinə münasibətdə), 444-cü, 445-ci, 446-cı, 447.0.1-ci, 447.0.2-ci, 447.0.3-cü (standartların və digər normativ sənədlərin tələblərinə cavab verməyən malların satılması, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar işlərə münasibətdə), 447.0.4-cü (qanunvericiliyə uyğun olaraq sertifikatlaşdırılmalı olan, lakin sertifikatlaşdırılmamış malların satılması, işlərin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi ilə əlaqədar işlərə münasibətdə), 447.0.5-ci (standartların və digər normativ sənədlərin tələblərinin pozulması nəticəsində insanların həyatı, sağlamlığı, əmlakı və ya ətraf mühit üçün təhlükəli məhsulun satılması, işin (xidmətin) görülməsi ilə əlaqədar işlərə münasibətdə), 447.0.9-cu, 453-cü və 544.2-ci maddələri;*

1.3.2. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci və 18-ci maddələri;

1.3.3. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci və 12-ci maddələri;

1.3.4. "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsi;

*1.3.5. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli, 795 nömrəli Fərmanının 5.8-ci, 5.44-cü, 5.48-ci və 5.51-ci bəndləri;*

1.3.6. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 02.12.1997-ci il tarixli, 647 nömrəli Fərmanının 2-ci hissəsi;

1.3.7. "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq olunmasını təmin edən əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 02.03.2001-ci il tarixli, 446 nömrəli Fərmanının 4-cü və 5-ci abzasları;

1.3.8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.10.2012-ci il tarixli, 235 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın 6.7-ci bəndi.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı: Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi (bundan sonra - Nazirlik).

1.5. Elektron xidmətin digər icraçıları: yoxdur.

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi: tam avtomatlaşdırılmışdır.

1.7. Elektron xidmətin icra müddəti: sorğunun informasiya sistemləri tərəfindən emalı müddətində.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi: qrant alınması (verilməsi), antiinhisar, reklam və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilmiş inzibati cərimələrin və maliyyə sanksiyalarının dövlət büdcəsinə ödənilməsi.

**2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi**

2.1. Elektron xidmətin növü: interaktiv.

2.2. Elektron xidmət üzrə ödəniş: ödənişsiz.

Qeyd: antiinhisar, reklam və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyinin tələblərinin pozulmasına görə tətbiq edilmiş inzibati cərimələrin və maliyyə sanksiyalarının dövlət büdcəsinə ödənilməsi üçün hesab:

Dövlət Xəzinədarlığı Agentliyi, VÖEN: 1401555071, Kod: 210005, M/H: AZ85NABZ01360100000000003944, SWIFT.BİK: CTREAZ22

Vəsaiti alan: Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti, VÖEN: 1302126941, Hesab №: AZ60CTRE00000000000002788470, Büdcə səviyyəsinin kodu: 7, Büdcə təsnifatının kodu: 142340.

Qeyd: qrant alınması (verilməsi) sahəsində qanunvericiliyin pozulmasına görə tətbiq edilmiş inzibati cərimələrin dövlət büdcəsinə ödənilməsi üçün hesab:

Dövlət Xəzinədarlığı Agentliyi, VÖEN: 1401555071, Kod: 210005, M/H: AZ66CTRE00000000000002107131, SWIFT.BİK: CTREAZ22

Vəsaiti alan: Bakı şəhər Maliyyə İdarəsi, Hesab №: 2107131, VÖEN: 1700446391 Büdcə səviyyəsinin kodu:1, Büdcə təsnifatının kodu: 143101.

2.3. Elektron xidmətin istifadəçiləri: hüquqi və fiziki şəxslər.

2.4. Elektron xidmətin təqdim olunma yeri: http://e-gov.az və http://e-xidmetler.economy.gov.az.

2.5. Elektron xidmət barədə məlumatlandırma: http://economy.gov.az, office@economy.gov.az, telefon: 012 493-88-67, faks: 012 492-58-95, Telefon məlumat mərkəzi: 195-2, http://www.consumer.gov.az, office@consumer.gov.az, telefon: 012 498-15-01, faks: 012 497-24-08.

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması: sənəd tələb olunmur.

**3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar**

3.1. Elektron xidmət üçün sorğu: elektron xidmət istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

3.2. Elektron xidmət üçün sorğu:

3.2.1. sorğunun formalaşdırılması: fiziki və hüquqi şəxslər http://e-gov.az və ya http://e-xidmetler.economy.gov.az ünvanlarına daxil olur və cərimələr bölməsini seçir. Açılan pəncərədəki sahəyə inzibati xəta haqqında və ya maliyyə sanksiyası barədə qərarın nömrəsini, tarixini və öz elektron poçt ünvanını daxil edir, növbəti pəncərəyə keçərək ödəniş kartının nömrəsini, etibarlılıq müddətini və 3 rəqəmli CVC kodunu daxil etməklə ödənişi həyata keçirir.

3.2.2. sorğunun qəbulu: sorğu bu Reqlamentin 2.4-cü yarımbəndində göstərilən internet ünvanlarının hər hansı birinə daxil olduğu gün qeydiyyata alınır və sorğunun qəbul edilməsi ilə bağlı istifadəçinin elektron poçtuna dərhal bildiriş göndərilir.

3.3. Elektron xidmətin göstərilməsi və ya imtina halları:

3.3.1. sorğunun yerinə yetirilməsindən imtina halları: fiziki və hüquqi şəxslər bu Reqlamentin 3.2.1-ci bəndində göstərilən məlumatları http://e-gov.az və ya http://e-xidmetler.economy.gov.az internet ünvanlarında açılan pəncərələrə düzgün daxil etmədikdə sorğunun yerinə yetirilməsindən imtina edilir. Sorğunun yerinə yetirilməsindən imtina istifadəçinin yenidən sorğu verməsinə maneə olmur.

3.3.2. sorğunun qəbulu: fiziki və hüquqi şəxslər bu reqlamentin 3.2.1-ci yarımbəndində göstərilən məlumatları düzgün daxil etdikdə sorğu qəbul olunur.

3.4. Sorğunun icrası:

3.4.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat: fiziki və hüquqi şəxslər bu Reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanlarının hər hansı birinə daxil olur və açılan pəncərələrdə bu Reqlamentin 3.2.1-ci yarımbəndində göstərilən məlumatları doldurur. İnzibati cərimə və ya maliyyə sanksiyası avtomatik rejimdə ödənilir və onların ödənilməsi barədə istifadəçiyə bildiriş göndərilir. Nazirliyin Elektron idarəetmə şöbəsi tərəfindən dərhal inzibati cərimənin və ya maliyyə sanksiyasının ödənilməsi barədə məlumat aidiyyəti üzrə Azərbaycan Respublikasının İqtisadiyyat ~~*və Sənaye*~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə və ya Nazirliyin Sahibkarlığın inkişafı siyasəti şöbəsinə göndərilir. Nazirliyin Elektron idarəetmə şöbəsinin müdiri bu elektron xidmətin yerinə yetirilməsi üzrə məsul şəxsdir;

3.4.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və (və ya) maksimal yerinə yetirilmə müddəti: Fiziki və hüquqi şəxslər bu Reqlamentin 3.2.1-ci yarımbəndində göstərilən məlumatları bu Reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanlarının hər hansı birində açılan pəncərələrdə doldurmaqla inzibati cəriməni və ya maliyyə sanksiyasını internet vasitəsilə ödəyir və bu barədə onlara avtomatik rejimdə bildiriş göndərilir. Nazirliyin Elektron idarəetmə şöbəsi tərəfindən fiziki və ya hüquqi şəxsin inzibati cəriməni və ya maliyyə sanksiyasını ödəməsi barədə məlumat aidiyyəti üzrə Azərbaycan Respublikasının İqtisadiyyat ~~*və Sənaye*~~ Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə və ya Nazirliyin Sahibkarlığın inkişafı siyasəti şöbəsinə göndərilir. Əməliyyatın icra müddəti onun informasiya sistemində emalı müddətindən asılıdır.

3.4.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat: yoxdur;

3.4.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilmə qaydası: inzibati cərimə və ya maliyyə sanksiyası onlayn rejimdə ödənilir və istifadəçi bununla bağlı çıxarışı çap edir.

3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.5.1. nəzarət forması: mütəmadi monitorinq;

3.5.2. nəzarət qaydası: elektron xidmətin göstərilməsi ilə bağlı baş vermiş nöqsanların

araşdırılması.

3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

3.6.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat: istifadəçilər elektron xidmətin göstərilməsi ilə bağlı onları razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilərlər;

3.6.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya: şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Nazirliyin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən elektron poçt ünvanlarına göndərilməlidir. Şikayətdə vətəndaşın adı, atasının adı, soyadı, ünvanı, poçt və (və ya) elektron poçt ünvanı, yaxud işlədiyi yer göstərilməlidir;

3.6.3. şikayətin baxılma müddəti: şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 78.1-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.